# Şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub



**Bakı**

Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi sentyabrın 27-də saat 12:00-da ölkəmizin bütün ərazisində birdəqiqəlik sükutla yad olunub.

AZƏRTAC xəbər verir ki, insanlar şəhid əsgər və zabitlərimizin ruhları qarşısında baş əyib, onların xatirəsinə dərin ehtiramlarını birdəqiqəlik sükutla ifadə ediblər. Sükut dəqiqəsi zamanı dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən səs siqnalları, Xəzər dənizinin sahil sularında sıralanan gəmilərdən fasiləsiz fit səsi verilib.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan olunub.

Ölkəmizin bütün şəhər və rayonlarında, o cümlədən azad edilmiş ərazilərimizdə anım mərasimləri keçirilib, Azərbaycandakı bütün dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda şəhidlərimiz dərin ehtiramla yad olunub, qəhrəman Vətən övladlarının ruhuna dualar oxunub.

**Naxçıvan**

Əzəli və əbədi Qarabağımızın azad olunması üçün iki il bundan öncə başlanan haqq savaşında minlərlə qorxmaz igid cəbhəyə üz tutdu. 44 günlük Zəfər dastanı yazan Vətən oğulları misli görünməmiş qəhrəmanlıq göstərdi, dünya hərb tarixinə keçən cəsarət nümayiş etdirdilər. Otuz il erməni tapdağında qalan torpaqlarımızı azad etdi, xalqa qələbə müjdəsini yaşatdılar. Şanlı zəfərimizin qazanılmasında naxçıvanlı döyüşçülər də böyük şücaət göstərdi, canı-qanı bahasına Şuşaya qədər şərəfli döyüş yolu keçdilər. Uğrunda fəda olduqları üçrəngli bayrağı Şuşa qalasına sancdılar. Azərbaycana şanlı zəfəri qazandıran, ərazi bütövlüyümüz naminə canlarından keçən əbədiyaşar qəhrəmanlarımız Naxçıvanda da böyük sevgi və minnətdarlıqla anılıb.

AZƏRTAC xəbər verir ki, 27 Sentyabr - Anım Günündə ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da saat 12:00-da Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayandırılıb.

Azərbaycan.-2022.-28 sentyabr.-S.3.